# Aprel döyüşləri – böyük zəfərin müjdəçisi

***Beş il öncə Qarabağda genişmiqyaslı hərbi əməliyyatlar baş vermişdi. Hərb tarixinə "Aprel döyüşləri" kimi düşən bu savaşın nəticələri dərin hərbi və siyasi məzmuna malik idi.***

2020-ci ilin 27 sentyabrından 9 noyabrınadək davam etmiş genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Ermənistanın sarsıdıcı məğlubiyyəti bu gün birmənalı şəkildə belə deməyə əsas verir ki, Aprel döyüşləri ərazilərimizin azad edilməsi ilə nəticələnən Azərbaycanın parlaq qələbəsinin müjdəçisi olmuşdu. Ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş və alınmaz qala iddia edilən müdafiə sisteminə ilk dəfə məhz Aprel döyüşlərində sarsıdıcı zərbə vurulmuş və Azərbaycan Ordusunun öz qarşısında dayanmış strateji vəzifələri yerinə yetirməyə qadir olduğu təsdiqlənmişdi.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu altında erməni işğalçılarını darmadağın edərək, 30 illik işğala son qoydu, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Tanınmış hərbi mütəxəssislər də bildirirlər ki, 2020-ci il Qələbəsinin əsası məhz 2016-cı ilin Aprel döyüşlərində qoyulmuşdu. "Milli müdafiə" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenkonun sözlərinə görə, Aprel döyüşləri Azərbaycan Ordusunun müasirləşdirilməsinin praktiki nəticə verməsinin ilk uğurlu nümunəsi olmuşdu. Hərbi mütəxəssis bildirir ki, Aprel döyüşlərinin təcrübəsi, qazanılan biliklər, düşmənin möhkəmləndirilmiş müdafiə sədlərini keçmək bacarığı olmasaydı, beş il sonrakı uğura ümid etmək olmazdı. İqor Korotçenko əmindir ki, bu, vacib və əhəmiyyətli uğur idi və Aprel qələbəsinin, daha sonra isə ötən ilin noyabrındakı yekun qələbənin Azərbaycan Silahlı Qüvvələrinin regionda ən yaxşılardan olduğunu və müasir müharibə qanunlarına uyğun olaraq səmərəli fəaliyyət göstərdiyini təsdiqlədi.



Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalmışdı. Azərbaycanın təmas xəttinə yaxın yaşayış məntəqələrinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla, 6 mülki şəxs həlak olmuş, 26 nəfər isə ağır yaralanmışdı. Bundan başqa, hücumlar nəticəsində çoxsaylı ictimai və şəxsi mülkiyyətə, o cümlədən, mülki infrastrukturlara ciddi ziyan dəymişdi.

Düşmənin hərbi təxribatının və barbarlığının qarşısını almaq üçün Azərbaycan Ordusu hərəkətə keçməyə məcbur olmuşdu. Əks-hücum nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad edilmişdi. Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımız sancılmışdı. 4 günlük döyüşlər zamanı ermənilərə məxsus 30 tank, 15-ə qədər artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis konstruksiyaları məhv edilmişdi. Ümumilikdə, Aprel döyüşlərinin yekunu olaraq Azərbaycan Ordusu tərəfindən 2000 hektardan artıq ərazi erməni işğalından azad edilmiş və bununla da böyük qələbənin təməli qoyulmuşdu.

Əlbəttə, Aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi və dördgünlük döyüşlərdə qazanılan qələbə xalqımızın orduya olan inamını daha da artırdı. Bununla yanaşı, Aprel döyüşləri göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri bütün parametrlərinə görə Ermənistan ordusundan üstündür və işğal altında olan torpaqları azad etməyə qadirdir. Belə ki, Azərbaycan Ordusunun bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin ön və təmas xəttindən dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirmiş, onları qəti zərbələrlə sıradan çıxarmışdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev aprel döyüşlərinin iştirakçısı olan hərbçilərlə görüşdə demişdi ki, Aprel döyüşləri Azərbaycanın şanlı hərbi qələbəsidir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir: "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Belə də oldu, 44 günlük İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi

Hərbi ekspert Yevgeni Nikolayçuk da vurğulamışdı ki, 2016-cı ilin Aprel döyüşləri münaqişə bölgəsindəki status-kvonun əbədi olaraq qoruna bilməyəcəyini bir daha isbatlamışdı. Ermənilərin "Ohanyanın müdafiə xəttini" bir çox yerdən aşan Azərbaycan Ordusunun döyüşlərin ilk iki günü ərzində işğal olunmuş ərazilərin strateji cəhətdən əhəmiyyətli bölgələrini azad etdiyini vurğulayan Y.Nikolayçuk əlavə etmişdi ki, azərbaycanlı əsgərlər öz silahlarının qüdrətini və onlara mükəmməl yiyələnmək bacarığını göstərmişdilər: "Onların bacarıqlı döyüş hərəkətləri nəticəsində nəinki Lələtəpə və Cocuq Mərcanlı həmsərhəd kəndlərinin hündürlüyü azad edilmiş, həm də İran – Azərbaycan sərhədində Araz çayı üzərində olan torpaqların Xudafərin körpüləri istiqamətində nəzarəti genişləndirilmişdi".

Heç kimə sirr deyil ki, Azərbaycanın Aprel döyüşlərində əldə etdiyi qələbə uzun illər İrəvanda hakimiyyəti əlində saxlayan erməni hərbi-siyasi elitasının belini qırmışdı. Xocalıda azərbaycanlılara qarşı törədilən soyqırımının təşkilatçılarından olan Seyran Ohanyan bir çox yüksək rütbəli zabitlərlə birlikdə vəzifəsindən azad edilmişdi. Baş nazir Ovik Abrahamyan da istefa vermişdi. Aprel döyüşlərindən iki il sonra Ermənistanda siyasi təlatümlər baş vermiş və Serj Sarkisyan rejimi nəhayət yıxılmışdı. Halbuki, 2 aprel 2016-cı il tarixinədək və ondan sonra da Azərbaycan daim qeyd edirdi ki, Qarabağ münaqişəsini sülh yolu ilə həll etməyə hazırdır, bu yol daha məqbuldur. Əgər döyüşlər yenidən başlanarsa, Azərbaycan əsgərləri Vətən və onun uğrunda həlak olmuş yoldaşları qarşısında öz borclarını bir daha yerinə yetirməyə hazır olacaqlar. Azərbaycanın bu xəbərdarlığını diqqətə almayan Ermənistanın yeni rəhbərliyi də köhnələrin yolu ilə getməyi üstün tutdu və bunun ağır nəticələrini hiss etməyə məhkum oldu. 27 sentyabrda növbəti hərbi təxibata əl atan erməni silahlı qüvvələri Azərbaycanın tutarlı və dağıdıcı əks-hücum əməliyyatlarının hədəfinə çevrildi, 44 gün ərzində erməni ordusu adında heç nə qalmadı.

Bir sözlə, Aprel döyüşləri Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini nümayiş etdirdi, Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi sahəyə göstərdiyi diqqətin, silahlı qüvvələrin işğal olunmuş əraziləri istənilən an azad etmək bacarığının göstəricisi oldu.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 4 aprel.- S.1.